

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 5 noyabr 2022-ci il №86 (2697) https://mod.gov.az Qiymәti 30 qəpik


## M.Ş.Bərxudarova "general-leytenant" ali hərbi rütbəsinin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram**:

General-mayor Mayis Şükür oğlu Bərxudarova "general-leytenant" ali hərbi rütbəsi verilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 4 noyabr 2022-ci il

## S.K.Bəkirova "vitse-admiral" ali hərbi rütbəsinin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram**:

Kontr-admiral Sübhan Kamal oğlu Bəkirova "vitse-admiral" ali hərbi rütbəsi verilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 4 noyabr 2022-ci il

## Türkiyə parlamenti Azərbaycandakı hərbçilərin xidmət müddətini daha bir il uzadıb

Türkiyə Böyük Millət Məclisi Azərbaycanın Ağdam rayonunda xidmət edən türk hərbçilərinin xidmət müddətinin daha bir il uzadılması ilə bağlı sənədi təsdiqləyib.

AZƏRTAC xəbər verir ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən ratifikasiya üçün parlamentə göndərilən sənəddə 44 günlük Vətən müharibəsində Azərbaycanın qazandığı rəşadətli hərbi Qələbə və ondan sonrakı proseslərdən bəhs olunur.

Diqqətə çatdırılır ki, beynəlxalq hüququn və suverenlik haqlarının təməlində ərazi bütövlüyü daxil olmaqla bütün haqlarını müdafiə etməsi üçün prosesin əvvəlindən Azərbaycana güclü dəstək verən Türkiyə bölgədə sülh və sabitliyin qorunub güclənməsi, iqtisadi infrastrukturun qurulmasına və bərpasına mühüm töhfələr verməkdə davam edir.

Sənəddə, o cümlədən Azərbaycan və Türkiyə arasındakı strateji ortaqlıq və qarşılıqlı yardım haqqında anlaşmaların mövcudluğu xatırlanır.

Qeyd edək ki, Ermənistan işğalından azad olunmuş Ağdam rayonunun ərazisində inşa edilən Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin açılışı 2021-ci il yanvarın 30-da həyata keçirilib.

Monitorinq Mərkəzinin ümumi sahəsi 4 hektara yaxındır. Ərazidə 65 ədəd modul tipli xidməti, inzibati və yaşayış otaqları var. Bütün otaqlar zəruri avadanlıqlar, su, elektrik və istiliklə təmin olunub. Burada hər iki tərəfin birgə istifadəsi üçün ümumi monitorinq mərkəzi, brifinq zalı, 100 nəfərlik yeməkxana, tibb məntəqəsi, camaşırxana, bərbər, dərzi, mağaza da var.

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Torpaqlarımızın Ermənistan tərəfindən işğalı illərində ərəb qardaşlarımızın dəstəyini hiss etmişik



Noyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ərəb Dövlətləri Liqasının 31-ci Sammitinə ev sahibliyi edən Əlcəzair Xalq Demokratik Respublikasının Prezidentinin dəvəti ilə Zirvə toplantısında Fəxri qonaq statusunda iştirak etmək üçün bu ölkəyə səfər edib.

Əlcəzair şəhərinin Huari Bumedyen Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Azərbaycan Prezidentini rəsmi şəxslər qarşılayıblar.

* * *

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Əlcəzair Xalq Demokratik Respublikasının paytaxtı Əlcəzair şəhərində Şəhidlər abidəsini və Milli Mücahidlər Muzeyini ziyarət edib.

Prezident İlham Əliyev abidənin önünə əklil qoyub.

Dövlətimizin başçısı muzeyin xatirə kitabına ürək sözlərini yazıb.

* * *

Noyabrın 1-də Əlcəzair Xalq Demokratik Respublikasının paytaxtı Əlcəzair şəhərində Ərəb Dövlətləri Liqasının 31-ci Zirvə toplantısı keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zirvə toplantısına ev sahibliyi edən Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti Abdelmacid Tebbunun dəvəti ilə tədbirin açılış mərasimində Fəxri qonaq statusunda iştirak edib.

Əlcəzair Prezidenti Abdelmacid Tebbun Prezident İlham Əliyevi, Zirvə toplantısında iştirak edən dövlət və hökumət başçılarını, nümayəndə heyətlərinin rəhbərlərini qarşılayıb.

Azərbaycan və Əlcəzair prezidentləri rəsmi foto çəkdiriblər.

Tunis Respublikasının Prezidenti Kays Sayid Zirvə toplantısını açaraq çıxış edib, təşkilata sədrliyi Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti Abdelmacid Tebbuna təhvil verib.

Əlcəzair Prezidenti Abdelmacid Tebbun və Ərəb Dövlətləri Liqasının Baş katibi Əhməd Əbul Qeyt çıxış ediblər.

Sonra söz Prezident İlham Əliyevə verilib.

Dövlətimizin başçısı Zirvə toplantısında çıxış edib.

### Prezident İlham Əliyevin çıxışı

- Hörmətli Əlcəzair Prezidenti Abdelmacid Tebbun.

Hörmətli Ərəb Dövlətləri Liqasının Baş katibi Əhməd Əbul Qeyt.

Hörmətli dövlət və hökumət başçıları, hörmətli nümayəndə heyətlərinin rəhbərləri, xanımlar və cənablar.

İlk növbədə, mən Əlcəzair Prezidentinə və Ərəb Dövlətləri Liqasının Baş katibinə dəvətə görə dərin təşəkkürümü bildirmək istəyirəm. Bunu dostluq və qardaşlıq əlaməti hesab edirəm. Bu mötəbər Sammitdə iştirak etmək və ölkələrimiz arasında birliyi nümayiş etdirmək mənim üçün böyük şərəfdir. Əlcəzairi belə bir xüsusi gündə, Milli Azadlıq Günündə, Milli Ləyaqət Günündə ziyarət etmək məndə xüsusi məmnunluq doğurur. Mən Əlcəzair Prezidentini və hökumətini, bütün Əlcəzair xalqını Azadlıq Günü münasibətilə təbrik edirəm.

Mən bu gün şəhidlərin xatirəsini yad etdim, Şəhidlər memorialını, eləcə də Mücahidlər Muzeyini ziyarət etdim və gördüklərim mənə çox təsir etdi. Fransanın Əlcəzair xalqına qarşı törətdiyi zorakılığı, kütləvi qəddarlığı dünya heç zaman unutmamalıdır. Fransa yüz ildən çox bir müddət ərzində Əlcəzair xalqına qarşı çox dəhşətli müharibə aparmışdır. Bu müharibə 1,5 milyon əlcəzairlinin ölümü ilə nəticələnmişdir. Bu gün biz bu faciələrin anaraq gələcəkdə belə faciələrin qarşısının alınması üçün əlimizdən gələni etməliyik.

Ərəb Dövlətləri Liqası ilə Azərbaycan arasındakı münasibətlərin xüsusi xarakteri var. Bu yay mənə Baş katib cənab Əbul Qeyti Bakıda qəbul etmək şərəfi nəsib olub. Biz gələcək əməkdaşlığımızla bağlı geniş söhbət apardıq. Azərbaycan 2006-cı ildən təşkilatın müşahidəçi statusunda üzvüdür və biz əməkdaşlığımızı genişləndirmək istəyirik.

Bu gün mən Sammitdə Qoşulmama Hərəkatının sədri kimi edirəm, lakin, eyni zamanda, bizim Ərəb Dövlətləri Liqasına üzv olan dövlətlərlə çox yaxşı münasibətlərimiz var. Əminəm ki, yaxın gələcəkdə bizim əməkdaşlığımız genişlənəcək, yeni xarakter və yeni dinamika alacaq.

Biz Ərəb Dövlətləri Liqasına üzv olan ölkələrlə ikitərəfli əməkdaşlığa da xüsusi önəm veririk. Biz aramızda olan qarşılıqlı dəstəyi və həmrəyliyi yüksək qiymətləndiririk.

Azərbaycan da Əlcəzair kimi işğaldan əziyyət çəkib. Bizim torpaqlarımız otuz il Ermənistanın işğalı altında qalmışdı. Bütün bu işğal illəri ərzində biz həmişə ərəb qardaşlarımızın dəstəyini, İslam Əməkdaşlıq Təşkilatına üzv olan dövlətlərin dəstəyini hiss edirdik.

Azərbaycan da öz növbəsində bütün beynəlxalq forumlarda müsəlman qardaşlarımıza öz dəstəyini əsirgəməmişdir. Biz İslam həmrəyliyinə kifayət qədər töhfə vermişik. 2017-ci il Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilmiş və Azərbaycan IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etmişdir. Bu idman tədbiri həmrəylik və dostluq bayramına çevrilmişdir.

Qoşulmama Hərəkatının sədri kimi Azərbaycan beynəlxalq arenada mühüm rol oynayır. 120 ölkəni bir araya gətirən Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisatdır. Azərbaycan 2019-cu ildən bu təsisatın sədridir və biz bütün üzv dövlətlərin yekdil səsi ilə seçilmişdik. Bu da bizim mövqeyimizə və siyasətimizə yüksək səviyyəli dəstəyi və rəğbəti nümayiş etdirir. Bizim sədrliyimiz bir daha yekdil qərarla 2023-cü ilin sonuna qədər uzadılmışdır. Biz bunu bir daha siyasətimizə verilən qiymətin əlaməti kimi görürük. Bizim sədrliyimiz COVID-19 dövrünə təsadüf etmişdir və biz bu məsələdə çox fəal idik. Azərbaycan koronavirusla bağlı 80-dən çox ölkəyə maliyyə və humanitar yardımı göstərmişdir. Biz Qoşulmama Hərəkatının Sammitini təşkil etdik. Biz 2020-ci ilin dekabrında keçirilmiş və sırf COVID-19 ilə mübarizəyə həsr edilmiş BMT-nin Baş Assambleyasının xüsusi sessiyasının təşəbbüskarı olduq. Bütün bu təşəbbüslərin bir ümumi məqsədi var idi - ehtiyacı olan ölkələrə dəstək vermək, resursları səfərbər etmək və peyvəndləri əldə etmək imkanı olmayan ölkələrə dəstək göstərmək.

**(Ardı 2-ci səhifədə)**

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Torpaqlarımızın Ermənistan tərəfindən işğalı illərində ərəb qardaşlarımızın dəstəyini hiss etmişik



(Əvvəli 1-ci səhifədə)

Hörmətli həmkarlar, xatırlayırsınızsa, pandemiyanın əvvəlində peyvəndlərə çıxış ən vacib məsələlərdən biri idi. Hətta inkişaf etmiş bəzi Qərb ölkələri vaksinləri lazım olduğundan beş dəfə, on dəfə çox əldə edirdilər. Amma resursları olmayan ölkələr əziyyət çəkməyə məcbur idi. Beləliklə, Azərbaycan bu məsələdə bir daha peyvənd millətçiliyinə, peyvəndlərin ədalətsiz paylanılmasına qarşı öz səsini ucaltdı və bu, Qoşulmama Hərəkatının da bizim mövqeyimizə dəstəyini gücləndirdi. Biz gələn ilin martında Qoşulmama Hərəkatının Sammitini keçirməyi planlaşdırırıq. Bu fürsətdən istifadə edib Ərəb Dövlətləri Liqasına üzv olan dövlət və hökumət başçılarını həmin Sammitdə iştirak etməyə dəvət edirəm.

İki il əvvəl Azərbaycan Ermənistan tərəfindən torpaqlarımızın iyirmi faizinin demək olar ki, otuz ilə yaxın davam edən işğalına son qoydu. Aparıcı beynəlxalq qurumların qətnamələrinə və qərarlarına baxmayaraq, Ermənistan bütün qərar və qətnamələrə məhəl qoymamış və Azərbaycanın ərazisinin demək olar ki, 20 faizini qanunsuz olaraq işğal altında saxlamağa davam etmişdi. İşğal zamanı bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilmişdi. Bizim insanlarımız etnik təmizləməyə məruz qalmışdı. Ermənistan 1992-ci ildə hazırda ondan çox ölkə tərəfindən tanınan Xocalı soyqırımını törədib. BMT-nin Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının ərazilərimizdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul etmişdir, lakin bu qətnamələr heç vaxt icra olunmamışdır.

Bu isə bizi başqa bir vacib amilə gətirib çıxarır. Bu da BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinin icra mexanizmi ilə bağlıdır. Bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün ərzində icra olunur. Amma bizə gəldikdə bu qətnamələr otuz il ərzində kağız üzərində qaldı. Bu, ikili standartdır, bu, yolverilməzdir. Bu, beynəlxalq hüququn norma və prinsiplərinə, ölkələrin öhdəliklərinə selektiv yanaşmadır. Buna görə əziyyət çəkmiş bir ölkə kimi Azərbaycan münaqişələrə dair yanaşmaların birləşdirilməsi işinə töhfə vermək üçün aktiv şəkildə fəaliyyət göstərir. Bütün münaqişələrə eyni mövqedən yanaşmaq lazımdır. Münaqişələrə yanaşmalarda ikili standart olmamalıdır. İşğal işğal adlandırılmalıdır.

İki il əvvəl Azərbaycan, qeyd etdiyim kimi, bu münaqişəyə son qoydu. Biz bunu öz gücümüzlə etdik. Biz BMT Nizamnaməsinin 51-ci maddəsində nəzərdə tutulmuş özünümüdafiə hüququndan istifadə etdik və ərazilərimizi güc yolu ilə azad etdik. Biz Ermənistanı məğlub etdik. Ermənistan kapitulyasiya etməyə məcbur oldu. İndi isə bizim torpaqlarımız azaddır və biz torpaqlarımıza qayıtmışıq.

Bəs qayıtdıqdan sonra biz nə gördük? On min kvadratkilometrdən çox ərazinin tamamilə məhv edildiyini gördük. Bu ərazi bəzi ölkələrin ərazisinə bərabərdir. Hər bir şey yerlə-yeksan edilmiş, dağıdılmışdır - şəhərlər, kəndlər, binalar, tarixi abidələr, hətta bizim əcdadlarımızın qəbirləri. İşğal zamanı 67 məsciddən 65-i Ermənistan tərəfindən tamamilə dağıdılmışdır. Bu isə terrorçu Ermənistan dövlətinin islamofob mahiyyətinin təzahürüdür.

İndi isə biz şəhər və kəndlərimizi bərpa edirik. Biz "Böyük Qayıdış" adlanan proqramın icrasına başlamışıq. Biz bunu öz resurslarımız hesabına edirik. Əfsuslar olsun ki, beynəlxalq donor təşkilatları bizə bu işdə yardım etmirlər. Biz özümüz bunu edirik. Bu gün Mücahidlər Muzeyini ziyarət edərkən mənə məlumat verildi ki, Fransanın işğalı zamanı fransızlar 5 milyondan çox mina basdırmışdı. Bu isə mənə bizim eyni ilə üzləşdiyimiz, hazırda əziyyət çəkdiyimiz işğal zamanı Ermənistan tərəfindən bir milyondan çox minanın basdırılmasını xatırlatdı. 2020-ci ilin noyabr ayında müharibə bitdikdən sonra minalar səbəbindən 260-dan çox azərbaycanlı həlak olmuş, yaxud ciddi yaralanmışdır. Biz bu işləri özümüz görürük. Biz torpaqlarımızı özümüz bərpa edəcəyik və artıq proses gedir. Biz Ərəb Dövlətləri Liqasının üzv dövlətlərindən olan qardaşlarımızdan yenə həmrəylik görürük, beynəlxalq təsisatlarda dəstək görürük və buna görə çox minnətdarıq. Ərəb Dövlətləri Liqasına qardaş ölkə Azərbaycanın Prezidenti, Qoşulmama Hərəkatının Sədri olaraq mən sizi bir daha əmin etmək istəyirəm ki, biz həmrəyliyimizi, birliyimizi daha da möhkəmləndirmək üçün əlimizdən gələni edəcəyik.





Mən bu dəvətə görə Prezidentə və Baş katibə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Bir daha qeyd etmək istəyirəm ki, belə bir mötəbər auditoriya önündə çıxış etmək mənim üçün böyük şərəfdir. Sizə və xalqlarınıza xoşbəxtlik, rifah və sülh arzu edirəm. Təşəkkür edirəm.

Sonra digər dövlət və hökumət başçıları, nümayəndə heyətlərinin rəhbərləri çıxış ediblər.

Qeyd edək ki, Ərəb Dövlətləri Liqası 1945-ci il martın 22-də Misir, İraq, İordaniya, Livan, Səudiyyə Ərəbistanı, Suriya və Yəmən tərəfindən yaradılıb. Hazırda təşkilata 22 dövlət daxildir. Təşkilatın mərkəz-qərargahı Misirin paytaxtı Qahirə şəhərində yerləşir. Türkiyə təşkilatda daimi müşahidəçi statusuna malikdir.

* * *

Noyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Əlcəzair Xalq Demokratik Respublikasına səfəri başa çatıb.

Əlcəzair şəhərinin Huari Bumedyen Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Azərbaycan Prezidentini rəsmi şəxslər yola salıblar.

**AZƏRTAC-ın materialları əsasında**

# Xüsusi Təyinatlı Qüvvələrin hərbi hissələrinin təlimi başlayıb

Müdafiə nazirinin təsdiq etdiyi 2022-ci il üçün döyüş hazırlığı planına əsasən, Azərbaycan Respublikasının cənub sərhədlərinə yaxın ərazilərdə Xüsusi Təyinatlı Qüvvələrin hərbi hissələrinin təlimi başlayıb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Xüsusi Təyinatlı Qüvvələrin komandanı general-leytenant Hikmət Mirzəyevin rəhbərliyi ilə keçirilən təlimin planına əsasən hərbi hissələr "Həyəcan" siqnalı ilə qaldırılıb.

Daimi dislokasiya məntəqələrini tərk edən xüsusi təyinatlılar əməliyyat rayonlarına çıxarıldıqdan sonra komandirlərin məruzələri dinlənilib və tapşırıqlar dəqiqləşdirilib. Hərbi Hava Qüvvələrinin, Raket və Artilleriya Qoşunlarının təlimə cəlb olunan hissə və bölmələri müvafiq olaraq təyin edilmiş aerodromlara və rayonlara cəmləşdirilib.

Digər qoşun növləri ilə qarşılıqlı fəaliyyət təşkil edilib.

Plana uyğun olaraq təlimin növbəti mərhələlərində xüsusi təyinatlı bölmələr onları dəstəkləyən Hərbi Hava Qüvvələri, eləcə də Raket və Artilleriya Qoşunlarının bölmələri ilə qarşılıqlı əlaqədə bir sıra tapşırıqları icra edəcəklər.

Qeyd edək ki, təlim çərçivəsində xüsusi təyinatlı bölmələrin müəyyən xüsusi hazırlıqları üzrə ayrıca yoxlamalar keçirilir.

* * *

Xüsusi Təyinatlı Qüvvələrin (XTQ) hərbi hissələri ilə keçirilən təlimin növbəti mərhələləri üzrə tapşırıqlar icra edilib.

Xüsusi təyinatlılar tərəfindən şərti düşmənin dərinliyində müxtəlif kəşfiyyat tapşırıqları və xüsusi əməliyyatlar yerinə yetirilib.

Aviasiya və artilleriya vasitələrinin, eləcə də zərbə dronlarının dəstəyi ilə təyin edilən həddin və məntəqələrin nəzarətə götürülməsi üzrə fəaliyyətlər icra edilib.

Plana uyğun olaraq xüsusi hazırlıqların yoxlanılması paralel davam etdirilir, o cümlədən yüksək dağlıq, meşəlik ərazilərdə döyüş tapşırıqlarının icrası və çətin manevrlər sisteminin dəf edilməsi üzrə hərbi qulluqçuların peşəkarlıq səviyyəsi yoxlanılır.

Xüsusi təyinatlıların təlimi davam edir.

* * *

Cari ilin döyüş hazırlığı planına əsasən, Xüsusi Təyinatlı Qüvvələrin hərbi hissələri ilə cənub bölgəsində keçirilən təlimdə gecə və məhdudgörmə şəraitində müxtəlif xüsusi tapşırıqlar icra edilib.

Təlimin ssenarisinə uyğun olaraq xüsusi təyinatlılar kəşfiyyat məlumatları əsasında şərti düşmənin dərinliyinə sızaraq pusqu, basqın, təxribat təlim döyüş tapşırıqları yerinə yetiriblər.

Xüsusi təyinatlılar tərəfindən aşkar edilmiş sığınacaqlarda və şərti cəbhənin digər istiqamətlərində bilavasitə təmas vəziyyətində düşmən texnikası və canlı qüvvəsinin məhv edilməsi tapşırıqları yerinə yetirilib.

Düşmən arxasında qarşılaşa biləcək manevr sistemlərinin kiçik bölmələr halında dəf edilməsi, yaşayış məntəqələrində döyüşün aparılması və ələ keçirilməsi fəaliyyətləri icra edilib

Qeyd edək ki, Vətən müharibəsində qazanılan döyüş təcrübəsi nəzərə alınmaqla gecə və gündüz keçirilən təlimlərdə əsas məqsəd xüsusi təyinatlıların peşəkarlıq səviyyəsinin daha da artırılması və praktiki vərdişlərinin təkmilləşdirilməsidir.

# Müdafiə naziri cənub bölgəsində yerləşən hissə və birləşmələrin yoxlamasını həyata keçirib





Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti respublikamızın cənub rayonlarında yerləşən hərbi hissə və birləşmələrin döyüş hazırlığını yoxlayıblar.



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, noyabrın 3-də müdafiə naziri Xüsusi Təyinatlı Qüvvələrin hərbi hissələrinin qeyd olunan ərazilərdə keçirilən təlimini izləyib.

Məruzə olunub ki, xüsusi təyinatlıların döyüş hazırlığının yoxlanması və daha da yüksəldilməsi məqsədilə keçirilən təlimdə hərbi qulluqçular qarşıya qoyulan bütün tapşırıqları peşəkarlıqla yerinə yetirirlər. Hərbi Hava Qüvvələrinin, eləcə də Raket və Artilleriya bölmələrinin dəstəyi ilə icra olunan xüsusi əməliyyatlarda qoşun növləri arasında qarşılıqlı əlaqə yüksək səviyyədə təşkil edilir.

Sonra təlimin növbəti mərhələsinə uyğun olaraq tapşırıqların icrası nümayiş etdirilib.

Plana əsasən, xüsusi təyinatlılar real döyüş şəraitində həqiqi döyüş sursatlarından istifadə olunmaqla açılan atəş altında irəliləyərək müdafiə olunan şərti düşmənə yaxınlaşıb, onun canlı qüvvəsini və atəş vasitələrini zərərsizləşdirərək dərinliyə doğru irəliləyiblər.

Təlimdə, həmçinin yaşayış məntəqəsində döyüşün aparılması, şərti düşmənin dərinliyinə desant endirilməsi və pusqunun icrası, eləcə də hava yolu ilə qruplara təminatın çatdırılması üzrə fəaliyyətlər də icra olunub.

Təlimin gedişatını müsbət qiymətləndirən general-polkovnik Zakir Həsənov xüsusi təyinatlılarla görüşüb, onların qayğıları ilə maraqlanıb və



şəxsi heyət qarşısında çıxış edib.

Müdafiə naziri çıxışında xüsusi təyinatlıların Vətən müharibəsində, eləcə də son qarşıdurmalarda göstərdikləri şücaət və qəhrəmanlıq nümunələrinin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən yüksək qiymətləndirildiyini bildirib. Onların təminat-təchizatının, o cümlədən döyüş hazırlığının daha da artırılmasının daim diqqət mərkəzində saxlanıldığını qeyd edib.



Sonda general-polkovnik Zakir Həsənov Azərbaycan Ordusunda qazanılan döyüş təcrübəsinin öyrənilməsi və müasir üsullarla keçirilən təlimməşq prosesində tətbiq edilməsi ilə bağlı müvafiq tapşırıqlar verib.

# Hissə və birləşmələrin Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən yoxlanılması davam edir



*Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti tank və komando hərbi hissələrində keçirilən təlimləri izləyib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, komanda idarəetmə məntəqələrinə baş çəkən müdafiə naziri "Tank ovçuluğu" təlimini və komandoların hazırlıq məşğələsini izlədikdən sonra komandir heyətinin məruzələrini dinləyib.



Məruzə olunub ki, təlim prosesində şərti düşmənin zirehli texnikasının pusquya və xəndəklərə salınmaqla yaxın məsafədən sıradan çıxarılması, eləcə də komandoların yaşayış məntəqələrində döyüş tapşırıqlarının icrası məşq etdirilir.



Təlimin planına uyğun olaraq tank bölmələri tərəfindən zirehli texnikanın atəşlə irəliləmə üsulları da yerinə yetirilir.

Komandoların və tank bölmələrinin fəaliyyətini yüksək qiymətləndirən general-polkovnik Zakir Həsənov Vətən müharibəsində qazanılan təcrübədən istifadə olunmaqla döyüş hazırlığının intensivliyinin və effektivliyinin daha da artırılması barədə aidiyyəti üzrə əlavə tapşırıqlar verib.

# Müdafiə naziri Ermənistanla sərhəddə yerləşən bölmələrdə olub





*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən noyabrın 4-də müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Ermənistanla sərhəd bölgəsində dislokasiya olunan hərbi hissələrdə olub.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, yeni istifadəyə verilmiş yerləşmə məntəqəsində yaradılan şəraitlə tanış olan müdafiə nazirinə məruzə olunub ki, qoşun xidmətinin yüksək səviyyədə təşkili üçün məntəqədə bütün zəruri şərait yaradılıb.



Burada silah otağı, yataqxana, yeməkxana, mətbəx, ərzaq və əşya anbarları, hamam-sanitar qovşağı, isitmə sobaları, ərazini fasiləsiz elektrik enerjisi ilə təmin edən generatorlar və günəş panelləri, eləcə də döyüş texnikasının saxlanması üçün park mövcuddur.

Qışa hazırlıq məqsədilə dayaq məntəqələrində və döyüş mövqelərində maye, odun və kömür yanacağı da daxil olmaqla bütün təminat növü ilə ehtiyat yaradılıb.

Şəxsi heyətin məişət şəraiti ilə tanış olduqdan sonra general-polkovnik Zakir Həsənov döyüş mövqelərində xidmət edən hərbi qulluqçuların xidməti döyüş fəaliyyəti ilə maraqlanıb.

Müdafiə nazirinə əməliyyat şəraiti ilə bağlı məruzələr edilib.

Sərt iqlim şəraitində və kəskin relyefli ərazilərdə xidmət edən hərbi qulluqçularla görüşən nazir onların döyüş və mənəvi-psixoloji hazırlığını yüksək qiymətləndirib.

Müdafiə naziri döyüş növbətçiliyinin və qoşun xidmətinin təşkili, hərbi qulluqçuların sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması ilə bağlı aidiyyəti şəxslərə müvafiq tapşırıqlar verib.



# Sabirabadda növbəti Zəfər forumu keçirilib



Biləsuvardan start götürən Zəfər forumunun növbəti ünvanı noyabrın 2-də Sabirabad rayonu olub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, forumda Prezident Administrasiyasının məsul əməkdaşları, Müdafiə Nazirliyi və yerli icra hakimiyyəti orqanlarının rəsmiləri, şəhid ailələrinin üzvləri, müharibə iştirakçıları, Azərbaycan Ordusunun hərbi qulluqçuları, qeyri-hökumət təşkilatlarının, eləcə də ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Şirvan şəhəri, Sabirabad, Saatlı, Kürdəmir, Neftçala, Hacıqabul və Salyan rayonlarından gələn qonaqların da qatıldıqları Zəfər forumu Sabirabad rayon Mədəniyyət Evində keçirilib.

Qonaqlar tədbirdən öncə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüb, Şəhidlər xiyabanını ziyarət ediblər.

Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, müharibə və Silahlı Qüvvələr veteranı, Zəfər paradının ssenari müəllifi və aparıcısı polkovnik Abdulla Qurbaninin moderatorluq etdiyi tədbirdə ənənəvi olaraq görkəmli dövlət xadimi Heydər Əliyevin və respublikamızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, hərbi orkestrin müşayiəti ilə Dövlət Himni ifa olunub.

Sonra şəhər və rayonlardan gələn şəhid ailələrinin üzvləri, müharibə iştirakçıları və müvafiq qurumların nümayəndələri çıxış edərək, Müzəffər Ali Baş Komandanın Azərbaycan naminə əmrlərinə hər an hazır olduqlarını bəyan ediblər.





Forum iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət edilib, xalqımıza Zəfər sevincini yaşatdığına görə dərin ehtiram ifadə olunub.

Tədbir iştirakçıları Əməkdar artist polkovnik-leytenant Cahangir Qurbanovun rəhbərlik etdiyi Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin iştirakı ilə hərbi marş və vətənpərvərlik mahnılarını alqışlarla qarşılayıblar.

Nümayəndə heyətlərinə Müdafiə Nazirliyinin adından A.Qurbaninin "Böyük gələcəyə baxış" və "Vətən müharibəsi şəhidləri" adlı kitabları hədiyyə edilib.

Zəfər forumu çərçivəsində Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzi tərəfindən "Əsgərə məktub" layihəsi də keçirilib. Rayon sakinləri Vətən müdafiəçilərinə məktublar ünvanlayıblar. Düşmən təxribatlarının qarşısını qətiyyətlə aldıqlarına, Vətənimizin keşiyində ayıq-sayıq, mərdanə dayandıqlarına görə onlara uğurlar diləyib və əsgərlik müddətini uğurla başa vuraraq sağ-salamat evlərinə dönüb, ailələrini sevindirəcəkləri günü arzulayıblar.

# “Vətən müharibəsi: 44 günlük zəfər salnaməsi” mövzusunda respublika elmi-praktik konfransı keçirilib



*Milli Müdafiə Universitetinin təşkilatçılığı ilə "Vətən müharibəsi: 44 günlük zəfər salnaməsi" mövzusunda respublika elmi-praktik konfransı keçirilir.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə Ümummilli Lider Heydər Əliyevin, Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Müdafiə nazirinin salamlarını konfrans iştirakçılarına çatdıran müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev konfransda çıxış edərək Azərbaycan Ordusunda aparılan islahatların elmi əsaslara söykəndiyini qeyd edib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ordumuzun qardaş Türkiyə Silahlı Qüvvələri modelinə uyğun inkişaf etdirilməsi barədə göstərişinin hərbi və elmi cəhətdən öz bəhrəsini verdiyi konfrans iştirakçılarının diqqətinə çatdırılıb.

Türkiyə Silahlı Qüvvələri standartlarına uyğun ordu modelinin müasir ordunun əsası olduğu, eyni zamanda, bunun Azərbaycan ilə Türkiyə orduları arasında hərbi, hərbi-texniki, elmi və digər məsələlərdə uyarlığı təmin etdiyi bildirilib.

İşğal edilmiş torpaqlarımızın azad edilməsinə nail olunmasında Vətən müharibəsinin mahiyyət etibarilə ümumxalq ideyası və amalına çevrildiyini bildirən Baş Qərargah rəisi Qələbəmizin xalqın sarsılmaz iradəsi, Müzəffər Ali Baş Komandanın rəhbərliyi, Silahlı Qüvvələrimizin bütün qoşun növü və qismlərinin qarşılıqlı fəaliyyəti, o cümlədən yeni üsul və ən müasir silahların tətbiqi ilə qazanıldığını xüsusi vurğulayıb.





Azərbaycan Ordusunun şanlı qələbəsi ilə nəticələnən Vətən müharibəsinin dünyanın bir çox hərbi-elmi mərkəzlərində təhlil edildiyi və orduları tərəfindən öyrənildiyi qeyd olunub.

General-polkovnik K.Vəliyev bildirib: "2021-ci və 2022-ci illərdə, o cümlədən cari ilin sentyabr ayında baş vermiş döyüş toqquşmaları zamanı əldə edilən uğurlar postmüharibə dövründə ordu quruculuğu sahəsində həyata keçirilən islahatların düzgün istiqamətə yönəldiyini sübut etdi. Döyüş əməliyyatlarında Azərbaycan Ordusu Ermənistanın hərbi infrastrukturuna ciddi zərbə vuraraq düşmən üzərində hərbi üstünlüyünü bir qədər də artırdı."



Azərbaycan Ordusunun Baş Qərargah rəisi konfrans iştirakçılarını qarşıdan gələn 8 Noyabr - Zəfər Günü münasibətilə təbrik edib və konfransın işinə uğurlar diləyib.

Elmi-praktik konfransda, həmçinin Milli Müdafiə Universitetinin rektoru, professor, general-leytenant Heydər Piriyev, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, filologiya elmləri doktoru, akademik, əməkdar elm xadimi İsa Həbibbəyli, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri, professor Famil Mustafayev, Milli Aerokosmik Agentliyinin baş direktoru Natiq Cavadov, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İdarəetmə Sistemləri İnstitutunun baş direktoru, akademik Əli Abbasov, Azərbaycan Texniki Universitetinin rektoru, professor Vilayət Vəliyev, Sosial Tədqiqatlar Mərkəzinin İdarə heyətinin sədri, millət vəkili Zahid Oruc və başqaları çıxış ediblər.

Sonra milli təhlükəsizlik, hərbi, texniki və humanitar elmlər, eləcə də hərbi təbabət bölmələri üzrə elmi məruzələr dinlənilib.

Sonda konfrans iştirakçılarına Milli Müdafiə Universiteti və Vətən müharibəsi barədə videoçarxlar nümayiş etdirilib.

* * *

Milli Müdafiə Universitetində "Vətən müharibəsi: 44 günlük zəfər salnaməsi" mövzusunda keçirilən respublika elmi-praktik konfransı başa çatıb.





Konfransda milli təhlükəsizlik, hərbi, texniki və humanitar elmlər, eləcə də hərbi təbabət bölmələri üzrə ümumilikdə 170-dən çox elmi məruzələr dinlənilib.

Milli Müdafiə Universitetinin təşkilatçılığı ilə keçirilən konfransda Azərbaycan Respublikasının xüsusi təyinatlı və ali təhsil müəssisələrinin professor-müəllim heyəti, adyunkt, dissertant və magistrantları qeyd olunan bölmələr üzrə mövzularda məruzələrlə çıxış ediblər.

Qeyd edək ki, respublika elmi-praktik konfransı 44 günlük Vətən müharibəsində qazanılan şanlı qələbənin 2-ci ildönümünə həsr olunub.





# “Zəfər Bayrağına düzlən!” adlı vətənpərvərlik tədbiri keçirilib



*Vətən müharibəsində Qələbənin ikinci ildönümü ərəfəsində Azərbaycan Hərbi Dəniz Qüvvələri və Qaradağ rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Zəfər Bayrağına düzlən!" adlı vətənpərvərlik tədbiri keçirilib.*

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Müdafiə Nazirliyi, Hərbi Dəniz Qüvvələri və Qaradağ rayon İcra Hakimiyyəti rəsmilərinin, Milli Məclisin deputatlarının, şəhid ailələri üzvlərinin, müharibə veteranlarının və ictimaiyyət nümayəndələrinin iştirak etdikləri tədbir başlamazdan əvvəl görkəmli hərbi xadim Heydər Əliyevin möhtəşəm abidəsi ziyarət olunaraq, önünə çələng və qızılgüllər qoyulub.

Layihənin müəllifi, Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, Zəfər paradının ssenari müəllifi və aparıcısı polkovnik Abdulla Qurbani tədbir iştirakçılarını salamlayaraq 2020-ci il noyabrın 8-də rəşadətli Azərbaycan Ordusunun Şuşada dalğalandırdıqları və Azadlıq meydanında nümayiş olunan Zəfər Bayrağının mərasimə gətirildiyini bildirib.



"Qələbə marşı"nın müşayiəti ilə fəxri qarovul Zəfər Bayrağını alqışlar altında səhnəyə gətirib.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və respublikamızın suverenliyi, ərazi bütövlüyü və əzəli tarixi torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla anılıb, Dövlət Himni ifa olunub.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 2020-ci il noyabrın 8-də Şəhidlər xiyabanından xalqa etdiyi müraciətdən vizual fraqmenti tədbir iştirakçıları ayaqüstə alqışlarla qarşılayıblar.

Hərbi Dəniz Qüvvələrinin komandanı kontr-admiral Sübhan Bəkirov tədbir iştirakçılarını tariximizin şanlı səhifəsi olan Zəfər Günü ərəfəsində Azərbaycan Hərbi Dəniz Qüvvələrinin komandanlığı və şəxsən öz adından təbrik edərək deyib:

"Hər bir xalqın həyatında əlamətdar və tarixi günlər var. Eləcə də bizim doğma Azərbaycanımızda. Ancaq qalib Azərbaycanımızın Zəfər Günü fərqli bir bayramdır. İki il öncə, sentyabrın 27-də Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təcavüzünə cavab olaraq işğal altındakı torpaqlarımızın azad edilməsi məqsədilə başladığımız Vətən müharibəsində xalqımız və ordumuz Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə elə bir qəhrəmanlıq dastanı yazdı ki, illər, əsrlər keçəcək, bu tarix heç zaman unudulmayacaq, qan yaddaşımızdan silinməyəcək".

Kontr-admiral S.Bəkirov qeyd edib ki, iki il əvvəl haqq və şərəf işimiz olan, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə xalqımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək düşmənə sarsıdıcı zərbələr endirdi.

Azərbaycan Ordusunun Zəfər yürüşünə dözə bilməyən düşmən təxribatlara əl ataraq, günahsız mülki insanları hədəfə alıb müharibə cinayətləri törətməkdən belə usanmadı.

Həmvətənlərimizin bir çoxu şəhid oldu, yaralanaraq sağlamlığını itirdi. Lakin torpaqlarımız qəhrəman şəhidlərimizin, əsgər və zabitlərimizin, qazilərimizin qanı və canı bahasına işğaldan azad edildi.

Müzəffər ordumuzun iki il öncə, noyabrın 8-də yazdığı tarix sabah daha da güclü inkişaf edəcək, çiçəklənəcək Azərbaycan üçün möhkəm bünövrə oldu. Bu, eyni zamanda, regionda dayanıqlı və uzunmüddətli sülhü, əmin-amanlığı və təhlükəsizliyi təmin edən mühüm amilə çevrildi.



Diqqətə çatdırılıb ki, "Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 3 dekabr tarixli Sərəncamında qeyd edildiyi kimi, xalqımızın əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər oldu.

Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı. Bu qələbə xalqımızın birliyinin, həmrəyliyinin, dövlətimizin iqtisadi gücünün, rəşadətli Azərbaycan Ordusunun əsgər və zabitlərinin fədakarlığının, şücaətinin, Ulu Öndər Heydər Əliyevdən miras azərbaycançılıq məfkurəsinin Azərbaycan-Türkiyə qardaşlığının, o cümlədən möhtərəm Prezidentimizin sərkərdə məharətinin, qətiyyətinin, hücum diplomatiyasının, dəmir yumruğunun qələbəsidir.



Hərbi Dəniz Qüvvələrinin komandanı digər qoşun növləri ilə yanaşı, Azərbaycan Hərbi Dəniz Qüvvələrinin şəxsi heyətinin də müharibənin ilk günündən bir nəfər kimi döyüşlərə hazır olduğunu bildirib: "Cəbhəyə yollanan dəniz piyadalarımız ilk gündən hərbi əməliyyatlara qoşularaq, qarşıya qoyulan tapşırıqları uğurla yerinə yetirərək göstərdikləri qəhrəmanlıq, şücaət, mərdlik və igidlik nümunələri ilə böyük Zəfər salnaməmizə parlaq səhifələr yazdılar. Onlar bir daha sübut etdilər ki, Azərbaycanın hərbi dənizçiləri dənizdə olduğu kimi, quruda da mühüm tapşırıqları müvəffəqiyyətlə yerinə yetirməyə hər an hazır və qadirdilər".

Diqqətə çatdırılıb ki, Hərbi Dəniz Qüvvələrinin sualtı hücum (SAH) və sualtı müdafiə (SAM) xüsusi təyinatlı dəstəsinin birinci xüsusi təyinatlı qrupu müharibənin ikinci günündə Goranboy rayonunda əfsanəvi qəhrəmanımız Mübariz İbrahimovun adını daşıyan "Mübariz postu" istiqamətində ilk döyüş tapşırığını itki vermədən uğurla yerinə yetirib. Sonra isə hərbi dənizçilər Füzuli, Cəbrayıl, Xocavənd, Qubadlı istiqamətlərində Zəfər yürüşünü davam etdirərək bir çox yaşayış məntəqələrini, eləcə də düşmənin hərbi şəhərciyini və zastavasını azad edib, Xudafərinə bayraq sancaraq azad edilən əraziləri aidiyyəti üzrə digər qoşunların bölmələrinə təhvil veriblər.



Komandan xatırladıb ki, Hərbi Dəniz Qüvvələri - xüsusi təyinatlılarının fədakarlığı nəticəsində Qubadlı rayonunun neçə-neçə kəndi, eləcə də Qubadlı şəhəri işğaldan azad edilib. Vətən Müharibəsi Qəhrəmanı polkovnik Zaur Quliyev Qubadlı şəhərinin azad olunması barədə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə məruzə edərək Qubadlı şəhərinin azad edildiyini bildirib.

Hərbi dənizçilər Qubadlıdakı uğurlu əməliyyatlardan sonra Xocavənd rayonunun yaşayış məntəqələrinin, bir çox strateji yüksəkliklərinin azad edilməsində əsl qəhrəmanlıq, igidlik nümunələri göstəriblər. Düşmənin alınmaz qalaya çevirdiyi və neçə-neçə igidimizin şəhid olduğu Qızılqayanın alınması uğrunda döyüşlərdə də hərbi dənizçilərimiz xüsusilə fərqləniblər.

Əlavə qüvvəyə ehtiyac yarandıqda Hərbi Dəniz Qüvvələrinin döyüş gəmilərinin şəxsi heyəti də bir nəfər kimi müharibəyə getməyə hazır olduqlarını dəfələrlə komandanlığa çatdırıblar. Lakin onlardan lazım olan sayda hərbi dənizçi cəbhəyə yola salınıb. Onlar da ilk gündən qələbə əzmi, yüksək döyüş əhval-ruhiyyəsi, vətənpərvərlik hissi ilə qarşıya qoyulan tapşırıqların icrasına nail olublar.

Möhtəşəm Zəfərin qazanılması uğrunda müqəddəs döyüşlərdə hərbi dənizçilər də şəhidlər olublar. Ancaq hərbi dənizçilər heç vaxt ruhdan düşməyib, onlar silahdaşlarının intiqamını döyüş meydanlarında alaraq şəhidlərimizin qanını yerdə qoymayıblar. Nə qədər ki, Azərbaycan var, Azərbaycan xalqı var, biz varıq şəhidlərimiz unudulmayacaq, onların xatirəsi həmişə əziz tutulacaq.

**(Ardı 7-ci səhifədə)**

# “Zəfər Bayrağına düzlən!” adlı vətənpərvərlik tədbiri keçirilib




(Əvvəli 6-cı səhifədə)

Tədbir iştirakçılarının diqqətinə çatdırılıb ki, Vətən müharibəsinin iştirakçısı olan zabit Xaliq İbrahimov hərbi qulluq vəzifəsini yerinə yetirən zamanı igidliyin və mərdliyin nümayiş etdirilməsinə görə Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən ən yüksək mükafata - "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adına layiq görülüb.

Azərbaycan Respublikası Prezidentinin digər sərəncamı ilə kiçik miçman Fəqan Amil oğlu Zalov da ölümündən sonra bu yüksək adla mükafatlandırılıb.

Vətən müharibəsi iştirakçıları olan hərbi dənizçilər bu gün də işğaldan azad edilən tarixi torpaqlarımızda xidmətlərini şərəflə davam etdirir və düşmənin təxribatlarının qarşısını mərdliklə, qətiyyətlə alaraq respublikamızın ərazi bütövlüyünün, təhlükəsizliyinin keşiyində ayıq-sayıq dayanıblar.

Kontr-admiral vurğulayıb ki, hərbi dənizçilərlə Qaradağ rayon İcra Hakimiyyəti arasında sıx əlaqələr var. Həm müharibədən əvvəl, müharibənin gedişində, o cümlədən bu gün də Qaradağ rayon İcra Hakimiyyətinin rəhbərliyi, rayonun hüquqmühafizə orqanları hərbi dənizçilərə daim mənəvi dəstək göstərir, xalq ilə ordunun əlaqələri daha da möhkəmlənir.

Çıxışının sonunda komandan qeyd edib ki, 2023-cü il Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən "Heydər Əliyev ili" elan edilib. Gələn il hərbi dənizçilər də görkəmli hərbi xadim, müasir Azərbaycan Ordusunun memarı, dahi rəhbərimiz Heydər Əliyevin 100 illik yubileyini təntənə ilə qeyd edəcəklər.

Kontr-admiral S.Bəkirov çıxışını bu fikirlərlə tamamlayıb: "Bu gün biz hərbi dənizçilər və Qaradağ rayonunun sakinləri Vətən müharibəsinin Zəfər bayrağına düzlənərək, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Zəfər bayrağı başımızın üstündə daha xoşbəxt, firavan, təhlükəsiz gələcəyə doğru inamla irəliləyəcəyik!".




Prezident Administrasiyasının məsul əməkdaşı Əli Pənahov tədbir iştirakçılarını Zəfər Günü münasibətilə təbrik edib, Müdafiə Nazirliyinin təşkilatçılığı ilə Zəfər forumu çərçivəsində keçirilən tədbirlərin əhəmiyyətindən danışıb. Qeyd edib ki, respublikanı əhatə edən Zəfər forumlarında iştirakçılar Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin daxili və xarici siyasətini ürəkdən bəyəndiklərini bildirib, onun hər bir çağırışına hər an hazır olduqlarını bəyan ediblər.

Milli Məclisin deputatları Aydın Hüseynov, Səbinə Xasayeva və Qaradağ Rayon İcra Hakimiyyəti başçısının müavini Təranə İsmayılova və başqaları 8 Noyabr - Zəfər Günü münasibətilə hərbi dənizçiləri rayonun ictimaiyyəti adından təbrik edərək bir daha vurğulayıblar ki, bundan sonra da Prezident İlham Əliyevin rəhbərliyi ilə xalq-dövlət-ordu birliyinin daha da möhkəmlənməsi üçün səylərini əsirgəməyəcək, Müzəffər Ali Baş Komandanın Azərbaycan uğrunda hər bir əmrinə hər an hazır olacaqlar.






Vətənpərvərlik tədbirinin rəsmi hissəsi başa çatdıqdan sonra Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin iştirakı ilə Vətəni, rəşadətli Ordumuzu və Müzəffər Ali Baş Komandanı tərənnüm edən hərbi marş, vətənpərvərlik mahnıları ifa olunub, videoçarxlar nümayiş etdirilib.

"Qarabağ" ordenli hərbi dənizçi şəhid gizir Zaur Ələsgərlinin anası Vəfa xanım şəhid ailələrinə göstərilən yüksək dövlət qayğısına görə Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, Müdafiə Nazirliyinin və Qaradağ Rayon İcra Hakimiyyətinin rəhbərliyinə, Hərbi Dəniz Qüvvələrinin komandanlığına minnətdarlığını bildirib.

Vətən Müharibəsi Qəhrəmanı polkovnik Xaliq İbrahimov bu gün də ruhumuzun paytaxtı Şuşanın müdafiəsində mərdliklə dayanaraq düşmən təxribatlarının qarşısını qətiyyətlə alan döyüşçülərin sırasında hərbi dənizçilərin də vəzifə borclarını şərəflə yerinə yetirdiklərini iftixar hissi ilə bildirib və Şuşa müdafiəçiləri adından tədbir iştirakçılarını təbrik edib. O bundan sonra da Müzəffər Ali Baş Komandanın əmrlərinə hər hazır olduqlarını bəyan edib.

Tədbirdə şəhid ailələrinə, qonaqlara və xidmətdə fərqlənən hərbi dənizçilərə xatirə hədiyyələri təqdim olunub.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# “İgidlərin var olduqca, Sən də varsan Azərbaycan!” adlı tədbir keçirildi



Azərbaycan Hərb Tarixi Muzeyində 44 günlük Vətən müharibəsində qazanılan qələbənin ikinci ildönümünə həsr olunmuş "İgidlərin var olduqca, Sən də varsan, Azərbaycan!" adlı tədbir keçirildi. Tədbirdə qazilər, Vətən müharibəsi iştirakçıları, məktəb şagirdləri və müəllim heyəti, ictimaiyyət nümayəndələri iştirak etdilər.

Öncə Ümummilli Lider Heydər Əliyevin və müstəqilliyimiz və ərazi bütövlüyümüz uğrunda şəhadətə yüksəlmiş şəhidlərimizin ruhları yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Tədbiri giriş nitqi ilə açan Hərb Tarixi Muzeyinin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə qonaqları salamlayaraq bildirdi ki, Azərbaycanın işğal olunmuş tarixi ərazilərinin separatçı qüvvələrdən təmizlənməsi uğrunda aparılmış və 44 gün davam edən Vətən müharibəsinin Zəfərlə başa çatmasından artıq iki il ötür. "Ötən hər gün bizi həmin hadisələrdən zaman etibarilə uzaqlaşdırsa da, hərbçilərimizin şücaəti, canı, qanı bahasına qazanılan tarixi qələbə hər bir azərbaycanlı üçün son dərəcə əziz və qiymətlidir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın Silahlı Qüvvələri bütün döyüş əməliyyatlarını yüksək səviyyədə həyata keçirməklə mənfur düşməni diz çökdürdü, şanlı Zəfər qazandı və tarixi ədaləti, ölkəmizin ərazi bütövlüyünü bərpa etdi. Azərbaycan cəbhədə atəşkəs imzalanandan bəri danışıqlar yolu ilə işğal edilmiş torpaqların azad edilməsinə can atsa da, Ermənistan cəmiyyətində mövcud olan hərbi eyforiya buna imkan vermədi. Ermənistanın baş naziri Nikol Paşinyanın "Qarabağ Ermənistandır - nöqtə" ifadəsi, 2020-ci ilin iyulunda Tovuz rayonu istiqamətində Ermənistan və Azərbaycan arasında dövlət sərhədində düşmənin törətdiyi təxribatlar sülh danışıqlarının nəticə vermədiyini açıq-aydın göstərirdi. Azərbaycan Prezidenti, Ali Baş Komandan çıxış və müsahibələrində dəfələrlə açıq-aydın bəyanat vermişdi ki, sülh danışıqları heç bir nəticə verməsə, biz öz torpaqlarımızı nəyin bahasına olursa-olsun, işğaldan azad edəcəyik. Sentyabrın 27-də düşmənin diversiya qrupunun cəbhədə təxribatlar törətməsi hərbi əməliyyatların başlanması üçün qığılcım rolunu oynadı. "Dəmir Yumruq" adını almış hərbi əməliyyatların gedişi zamanı Azərbaycan Silahlı Qüvvələri arsenalında olan ən müasir silah və texnikadan yararlanmaqla düşmən ordusuna sarsıdıcı zərbələr endirdi. Müharibənin ilk günlərindən son günlərinə qədər ordumuzun yüksək səviyyədə idarə olunması, qərargahların, zabit, gizir və əsgərlərimizin qəhrəmanlığı, fədakarlığı sayəsində düşmən döyüş meydanında ağır məğlubiyyətə uğradı. Ordumuzun şəxsi heyəti döyüşlərdə möhkəm intizam, yüksək hazırlıq nümayiş etdirərək döyüş hazırlığı prosesində qazandığı nailiyyətləri uğurla tətbiq etdi və 44 günlük haqq savaşımız Böyük Qələbə ilə sonlandı. Prezident İlham Əliyev çıxışlarının birində vurğulamışdır: "İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Bu Qələbə tarixdə əbədi qalacaq. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində düşmən ordusunu məhv edərək öz ərazi bütövlüyünü bərpa etdi. Biz düşməni torpaqlarımızdan qovduq və ədaləti, beynəlxalq hüququ bərpa etdik. Biz milli ləyaqətimizi bərpa etdik. Bu gün Azərbaycan xalqı müzəffər xalq kimi yaşayır. Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır. Biz bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq".



Müharibə qaziləri gələcəyimizin memarları olan gənc şagirdlərə üzlərini tutaraq bildirdilər ki, bu gün işğaldan azad olunan tarixi torpaqlarımızın müdafiəçiləri məhz onlardırlar və Vətəni göz bəbəyi kimi qorumağın ən ümdə vəzifə olduğunu qeyd edən müharibə iştirakçıları müqəddəs amala xidmət edəcək şagirdlərə gələcək həyatlarında sülh, cansağlığı və uğurlar arzuladılar.

Digər çıxış edənlər də Vətən müharibəsində qazanılan qələbənin asanlıqla əldə olunmadığını qeyd etdilər. Bildirdilər ki, Zəfər şəhidlərimizin canı ilə, qazilərimizin qanı ilə qazanılıb. Həmçinin ordumuzun İkinci Qarabağ müharibəsində apardığı misilsiz taktiki irəliləyiş və qısa zaman ərzində düşməni darmadağın etməsindən danışan qonaqlar Silahlı Qüvvələrimizin ən müasir hərbi texnika və silahlardan istifadə edərək qazanılan qələbəyə misilsiz töhfə verdiyini qeyd etdilər.

Çıxış edənlər öz nitqlərini başa çatdırdıqdan sonra İkinci Qarabağ müharibəsindən və qazanılan Böyük Qələbədən bəhs edən sənədli film nümayiş etdirildi.

Sonda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistlərinin ifasında vətənpərvərliyi tərənnüm edən musiqilər səsləndirildi.

**Baş leytenanat**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

**(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)**

**Mövzu:** Döyüş hazırlığında, döyüş növbətçiliyində təhlükəsizlik qaydalarına riayət edilməsi, hərbi xidmətin təhlükəsizliyinin təmin edilməsi.

**Suallar:**
**1. Döyüş növbətçiliyinin təşkili və aparılması zamanı əsas təhlükəsizlik tələbləri.**
**2. Hərbi xidmətin təhlükəsizliyinin təmin edilməsi.**

## Döyüş növbətçiliyinin təşkili və aparılması zamanı əsas təhlükəsizlik tələbləri

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Nizamnamə və təlimatlarının, Müdafiə nazirinin əmrlərinin, eləcə də bilavasitə rəislərin əmr və sərəncamlarının tələblərinə müvafiq olaraq, birləşmə və hissələrdə təhlükəsizlik tədbirlərinin təşkili, onların kecirilməsinə rəhbərlik və nəzarət edilməsi komandirlərə və digər vəzifəli şəxslərə həvalə olunur.

Döyüş növbətçiliyi "Döyüş növbətçiliyinin təşkili və aparılmasına dair Təlimat"a uyğun təşkil olunur və düşmənin qəfildən hücumunun vaxtında aşkar edilməsi və dəf olunması, həmçinin müdafiənin dayanıqlığını və keçilməzliyini təmin etmək məqsədi ilə təşkil olunur. Silahlarla, döyüş texnikası və digər texnika və cihazlarla işlədikdə, marş, təlim, döyüş atışları, uçuş, gəmi səfərləri, xüsusi məşğələlər aparıldıqda, qarovul və daxili xidmət növbətçiliyi zamanı komandir (rəis) adları çəkilən hallar üçün zəruri təhlükəsizlik tədbirlərini müəyyənləşdirib, tabeliyində olanlara çatdırılmasını və bu tədbirlərin ciddi surətdə yerinə yetirilməsini tələb etməlidir.

Döyüş növbətçiliyinin təşkili və aparılması zamanı postlarda (döyüş mövqelərində) aşağıdakı təhlükəsizlik qaydalarına əməl edilməlidir:

- ehtiyac olmadan patronu patron yuvasına yeritməmək;
- silahla əsgər sığınacağına daxil olmamaq;
- silahı doldurma-boşaltma yerində ancaq post (mövqe) başçısının nəzarəti altında silahı doldurmaq (boşaltmaq);
- daraq taxılandan sonra silahı qoruyucuda saxlamaq;
- doldurulmuş silahla (qoruyucuda olsa belə) davranış qaydalarını pozmamaq;
- içərisində mərmi (patron) olub-olmamasından asılı olmayaraq, silahı şəxsi heyətə, əsgər sığınacağına, yaşayış məntəqəsinə tərəf yönəltməmək;
- silaha boş darağı taxarkən patronun olub-olmamasına nəzarət etmək;
- səngərdə durarkən başını qaldırmamaq, qarşı tərəfi (düşməni) ancaq müşahidə məntəqəsindən müşahidə etməli, zirehli jileti çıxarmamalı və silahı əlindən qoymamalıdır;
- gecə vaxtı tonqalların qalanmasına, maşınların qarşı tərəfin (düşmənin) müşahidəsi altında olan sahələrdə qoşulmuş faralarla hərəkətinə yol verməmək.

Döyüş növbətçiliyində olarkən silahı sökməməli, qarşı tərəflə (düşmənlə) heç bir halda əlaqəyə girməməli, döyüş növbətçiliyinin yerini (postu) post (mövqe) başçısının icazəsi olmadan tərk etməməli və deyilən tələbləri yerinə yetirməyən əsgər yoldaşı barədə dərhal post (mövqe) başçısına məruzə etməlidir.

Hərbi qulluqçuların sağlamlığının qorunması, sanitar-gigiyena qaydalarına əməl edilməsi, profilaktika və epidemiya əleyhinə tədbirlərin keçirilməsi ilə, həmçinin ərazidə tanınmayan bitki və meyvələri yeməməklə, həşaratlara yaxın durmamaqla və açıq ərazidə yatmamaqla şəxsi heyətin sağlamlığı üzərində daimi tibbi nəzarətlər əldə edilir.

Hər bir hərbi qulluqçu şəxsi və ictimai gigiyena qaydalarına ciddi riayət etməli və öz orqanizmini gündəlik möhkəmləndirməli, tərli-tərli su içməməli, kəsici, deşici əşyalarla zarafat etməməli və həkimin məsləhəti olmadan dərman qəbul etməməlidir. Yoxlanılmamış su hövzələrindən su içməməli, ancaq qaynadılmış suyu içmək məsləhət görülür. Soyuq vaxtlarda hərbi qulluqçuların orqanizminin həddindən artıq soyuması və donması, isti vaxtlarda isə həddindən artıq qızması, gün yanıqları və istilikvurma hallarının qarşısını alan tədbirlərin görülməsi xüsusi əhəmiyyət kəsb edir.

Əhvalı pozulmuş, hər hansı bir psixoloji və ailə problemi olan əsgər yoldaşı barədə dərhal post (mövqe) başçısına məruzə etməlidir. Çünki belə hallar intihara gətirib çıxara bilər. Vaxtında edilmiş məruzə və komandanlıq tərəfindən həyata keçiriləcək müvafiq tədbirlərlə intihar hallarının qarşısı alına bilər.

Atış çalışmalarının, döyüş atışlarının və döyüş atışlı taktiki təlimlərin keçirilməsi zamanı təhlükəsizlik tədbirləri:

- Atışda təhlükəsizlik, atışların düzgün təşkili, "Atış kursu"nda qoyulma qayda və təhlükəsizlik tədbirlərinə dəqiq riayət etməklə, bütün hərbi qulluqçuların yüksək intizamı ilə təmin olunur. Atış keçirilən hər bir obyektdə, onun xüsusiyyətlərini və ərazi şəraitini nəzərə alaraq təhlükəsizlik tədbirləri üzrə təlimat hazırlanır və onu atışa çıxarılmış bölmələrin şəxsi heyəti bilməlidir. Təhlükəsizlik tədbirlərini mənimsəməmiş şəxsi heyət atışa buraxılmır.
- Atışdan əvvəl hədəf meydanı yoxlanılmalıdır və atış ərazisindən insanlar, heyvanlar və maşınlar çıxarılmalıdır. Atış obyektində hərəkətə yalnız təlim mərkəzi rəisinin göstərdiyi yollarda və rayonlarda icazə verilir.
- Partlamamış mərmilər, minalar, bombalar, partladıcılar və partlama təhlükəli maddələr olan sahələrə girmək (maşınla) qadağandır. Belə sahələrdə müvafiq nişanlı və xəbərdarlıq yazılı göstəricilər qoyulmalıdır.
- Partlamamış mərmilərə, minalara və başqa partlama təhlükəsi olan cisimlərə və yamsılama vasitələrinə toxunmaq qadağandır. Belə hallarda baş atış rəhbərinə və təlim mərkəzi rəisinə müəyyən olunmuş qaydada məlumat verilməlidir.
- Atəş açan döyüş maşınları ekipajlarının atış rəhbəri ilə rabitəsi olmayanda (itəndə) atəş açmaq və aparmaq qadağandır. Hədəf meydanında, uçuş məkanında yanğın əmələ gəldikdə, atəş açan döyüş maşınlarının ekipajları səmti itirdikdə və qoşunlardan 100 metrdən çox geriyə qaldıqda da atəş dərhal dayandırılır. Atışı dayandırma siqnalları və "Dur", "Atəşi dayandır" komandaları ilə döyüş maşınları (atıcılar) dayanırlar, atəşi dayandırırlar, silahları boşaldırlar və qoruyucuya qoyurlar (elektrik tətiyi açılır).
- Döyüş maşınları ilkin vəziyyətə qayıdana kimi ("Maşınlara" komandası verilənə qədər) lyukları açmaq və döyüş maşınlarından çıxmaq qadağandır.
- Əl döyüş qumbaraları atılanda zapal yalnız qumbaranı atmaqdan əvvəl rəhbərin komandası ilə qoyulur. Döyüş əl qumbaralarını qumbara çantasından kənarda daşımaq qadağandır. Daldanacaqdan müdafiə və tank əleyhinə qumbaralar partlayandan 10 saniyədən az olmayaraq keçəndən sonra çıxmaq olar. Əgər doldurulmuş döyüş qumbarası atılmayıbsa (qoruyucu mil çıxarılmayıb), onun boşaldılması yalnız bilavasitə rəhbərin müşahidəsi altında və komanda ilə yerinə yetirilir.
- Uçuş vaxtı vertolyotdan və trenajordan (vertolyot maketi) atışda silahın doldurulmasını, atışı, boşaltmanı və yoxlamanı silah kronşteyndə qoyulmuş və vertolyotdakı (trenajor) atış rəhbərinin komandası (siqnalı) ilə yerinə yetirməli.

## Hərbi xidmətin təhlükəsizliyinin təmin edilməsi

Hərbi xidmətin təhlükəsizliyi - hərbi qulluqçuların təhlükəli və zərərli amillərin təsirindən həyati vacib maraqlarının müdafiəsi dərəcəsini əks etdirən hərbi xidmətin vəziyyətidir. Hərbi xidmətin təhlükəsizliyinin təmin edilməsi hərbi qulluqçuların həyat və sağlamlığının qorunub saxlanılmasına, qoşunların həyat fəaliyyətinin bütün növlərinin təhlükəsizlik şəraitinin təşkilinə, eləcə də xidməti vəzifələri yerinə yetirərkən şəxsi heyətin ölümünə və xəsarət almasına səbəb olan amillərin təhlili, proqnozlaşdırılması və təsirinin məhdudlaşdırılmasına yönəlmiş Azərbaycan Respublikasının qanunvericiliyinin, Silahlı Qüvvələrin ümumqoşun nizamnamələrinin, Müdafiə Nazirliyinin müvafiq normativ aktlarının tələblərinin yerinə yetirilməsinə dair vəzifəli şəxslərin və hərbi idarəetmə orqanlarının məqsədyönlü fəaliyyətidir.

Xidməti vəzifələrini (müvafiq işi) yerinə yetirən zamanı hərbi qulluqçuların təhlükəsizliyini təmin edən qanunvericilik aktları ilə, normativ-texniki sənədlərlə, qaydalar və təlimatlarla müəyyən edilmiş təhlükəsizlik tələbləri vardır. Azərbaycan Respublikasının müdafiə nazirinin qərar və əmrləri, müdafiə nazirinin müavinləri, qoşun növləri komandanlarının əmr və sərəncamları ilə isə əlavə təhlükəsizlik tələbləri müəyyən edilir.

Birləşmələrin (hərbi hissələrin) ərazisində və ya çox yaxında yerləşən binalar (qurğular), maşınlar (aqreqatlar, mexanizmlər), sənaye və təbii obyektlər vardır ki, onlar təhlükəli obyektlər sayılır. Həmin obyektlərin içində (onların yanında) şəxsi heyət üçün təhlükəli (zərərli) amillərin olması ehtimalı hərbi qulluqçuların təhlükəsizliyinin təmin edilməsi, onların ölümü və xəsarət almasının qarşısının alınması üçün əlavə tədbirlərin görülməsini tələb edir.

Hərbi qulluqçuların həyat və sağlamlığı üçün real təhlükə yaradan təhlükəli hallar vardır ki, onlara çovğun, tufan, yolların buz bağlaması, dənizdə qasırğa, çayda burulğan, epidemiya və s. hallar aiddir. Qoşunların gündəlik fəaliyyətində təhlükəli amillərin təsiri nəticəsində hərbi qulluqçuların həlak olması və ya sağlamlığına ziyan vurulması (zədələnmə, yaralanma, xəsarətalma) ilə nəticələnən hadisələri azaltmaq üçün vəzifəli şəxslər tərəfindən təhlükəsizlik tədbirləri keçirilir.

Hərbi xidmətin təhlükəsizliyinin obyektlərinə hərbi qulluqçular, yerli əhali və ətraf təbii mühit, subyektlərinə isə hərbi hissələrin və hərbi idarəetmə orqanlarının vəzifəli şəxsləri aiddir.

Hərbi xidmətin təhlükəsizliyinin təmin edilməsi üzrə tədbirlərin əsas məqsədi aşağıdakılardır:

- şəxsi heyət arasında qeyri-döyüş itkilərinin qarşısının alınması;
- hərbi qulluqçular tərəfindən yerli əhaliyə qarşı hüquq pozuntularının qarşısının alınması;
- ətraf təbii mühitə zərər vurmağın maksimum azaldılması.

Hərbi hissədə hərbi xidmət təhlükəsizliyinin təmin olunması sisteminin əsas vəzifəsi - hərbi xidmətin təhlükəsizlik səviyyəsini azaldan mənfi amillərin təsirinin neytrallaşdırılması və gündəlik fəaliyyət prosesində bütün kateqoriyalı hərbi qulluqçuların optimal idarə olunmasının təşkilidir.

Hərbi xidmət təhlükəsizliyinin təmin olunmasının digər vəzifələri aşağıdakılardır:

- hər bir hərbi qulluqçuda təhlükəsizlik tədbirlərinə və qaydalarına ciddi əməl olunmasına dair şəxsi məsuliyyətin formalaşması;
- şəxsi heyətdə həm öz həyatının, sağlamlığının, həm də ətrafdakıların həyat və sağlamlığının qorunub saxlanılmasına şüurlu münasibətin formalaşdırılması;
- bütün kateqoriyalı vəzifəli şəxslərə hüquqi mədəniyyətin və mövcud hüquq normalarının yerinə yetirilməsi hissinin aşılanması;
- hərbi qulluqçuların maksimum təhlükəsiz fəaliyyətini təmin edən möhkəm hərbi-peşəkar və mənəvi-psixoloji keyfiyyətlərin formalaşdırılması;
- bütün kateqoriyalı hərbi qulluqçulara, hərbi nizamnamələrə hörmətlə yanaşılması, onların tələblərinə ciddi əməl edilməsinə dair bacarıq və vərdişlərin aşılanması, şəxsi intizamın və icraçılığın tərbiyəsi;
- şəxsi heyətdə mülki əhaliyə hörmətlə yanaşmanın və onlara qarşı normativ hüquqi tələblərin ciddi yerinə yetirilməsinin formalaşdırılması;
- hərbi qulluqçularda ətraf mühitə humanist münasibətlərin formalaşması.

Hərbi xidmətin təhlükəsizliyi aşağıdakı əsas növlərə bölünür:

- döyüş növbətçiliyinin (növbəsi) təhlükəsizliyi;
- qarovul, daxili və qarnizon xidmətinin təhlükəsiz aparılması;
- silah və hərbi texnikanın istismarının təhlükəsizliyi;
- döyüş hazırlığının (o cümlədən, atış çalışmaları, döyüş atışları, taktiki təlimlərin keçirilməsi, döyüş texnikasının sürülməsi) təhlükəsizliyi;
- praktiki və xüsusi məşğələlərin təhlükəsizliyi;
- təsərrüfat işlərinə cəlb edilən hərbi qulluqçuların təhlükəsizliyi.

Hərbi xidmətin təhlükəsizliyin təmin edilməsinə dair komandirlərin fəaliyyətinin vacib mərhələsi tabeçilikdə olan bölmələrdə hərbi xidmətin təhlükəsizliyin vəziyyətinin təhlili və onun təmin edilməsinə dair yekunların keçirilməsidir.

Hərbi xidmətin təhlükəsizliyin vəziyyətinin təhlilinə hərbi xidmətin təhlükəsizliyin vəziyyətinə dair məlumatların toplanması və sistemləşdirilməsi, aparılan işdə mövcud nöqsanlar və onların xarakterik səbəbləri, hərbi qulluqçuların, mülki işçilərin həyat və sağlamlığına, ətraf mühitə zərər vurma halların qarşısının alınması tədbirlərinin müəyyən edilməsi daxildir. Hərbi xidmətin təhlükəsizliyinin təmin edilməsinə dair yekun döyüş hazırlığının, hərbi intizamın, qoşun xidmətinin təhlili və yekunu ilə bir vaxtda keçirilir.

Hərbi qulluqçuların fiziki və psixoloji sağlamlığının qorunması və möhkəmləndirilməsinə qayğı göstərilməsi komandirlərin əsas vəzifəsidir. Məhz onların üzərinə qoşun xidməti, döyüş hazırlığı, döyüş növbətçiliyi (növbəsi), təsərrüfat və hərbi hissənin (bölmələrin) digər fəaliyyət növləri ilə əlaqədar keçirilən müxtəlif tədbirlər zamanı təhlükəsizlik tələblərinin təmin olunmasına görə böyük məsuliyyət düşür.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

Baş redaktorun müavini
kapitan
Məhəmməd NƏSİRLİ

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

Ünvanımız
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

Növbətçi
baş leytenant
İbrahim MƏMMƏDBƏYOV

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 1028
Nüsxə 4740